# Cənub bölgəsində 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla anılıb





## Lənkəran

Minlərlə Lənkəran sakini şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanında "qanlı şənbə" qurbanlarının məzarlarını ziyarət edib.

Mərasimə qatılan Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov "Şəhidlər" Xatirə Kompleksinin önünə tər çiçəklər düzüb. Şəhər rəhbəri eyni zamanda abidə önündə şəhid ailə üzvləri ilə görüşərək onların qayğıları ilə maraqlanıb. Sonra ümumrayon ziyarəti başlanıb.

Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində isə 20 Yanvar hadisələrinə həsr edilmiş sərgi təşkil olunub. Geniş ictimaiyyət nümayəndələri sərgidə təqdim olunan rəsm əsərləri ilə tanış olublar. Yanvarın sonuna qədər davam edəcək sərgidə Heydər Əliyev Mərkəzinin nəzdində fəaliyyət göstərən rəssamlıq kursunun, həmçinin Uşaq Rəssamlıq Məktəbinin və Uşaq Yaradıcılıq Mərkəzinin yetirmələrinin 40-a yaxın əl işi nümayiş etdirilir.

Həmin gün N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında Əli Vəlioğlunun "Əsrlərin harayı" tamaşası oynanılıb. Saat 12-də rayon ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

## Astara

Astara rayonunda da Qanlı Yanvar faciəsi qurbanlarının xatirəsi böyük ehtiramla yad edilib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr, şəhid ailələrinin üzvləri, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

"Qanlı şənbə"də iki nəfər astaralı – Çingiz Əliyev və Novruz Əsgərov da imperiya əsgərlərinin gülləsinə tuş gəlmişlər. Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının mübarizə əzmini qıra bilməmiş, Vətən oğulları öz qanları ilə Azərbaycan tarixinə parlaq səhifə yazmışlar. Anım tədbirində Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların ruhuna dualar oxunub.

Ziyarətə gələnlər sonra "Şəhidlər" Xatirə Kompleksinin qarşısında 20 Yanvar faciəsinə həsr olunmuş stend və rəsm sərgiləri ilə tanış olublar. Tədbir iştirakçıları YAP rayon təşkilatının inzibati binasında şair Mərasim Hacızadənin Astara şəhidlərinə həsr olunmuş yeni "Əbədiyyət yolçuları" kitabının təqdimat mərasimində də iştirak ediblər.



## Masallı

"Qəhrəmanlar parkı" Masallı gənclərinin and yeridir. Burada şəhidlərin ölməz xatirəsi daim böyük ehtiramla yad olunur. Elə yanvarın 20-də də gənclər, həmçinin veteranlar və rayon ictimaiyyətinin nümayəndələri parka gələrək şəhidlərin xatirə abidə kompleksində anım mərasimi keçiriblər.

Əvvəlcə Masallı Xalq Teatrının üzvləri və Masallı Dövlət Regional Kollecinin həvəskar aktyorlarının ifasında "Haray" adlı əbəbi-bədii kompozisiya nümayiş etdirilib. Sonra anım mərasimi başlanıb. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların kollektivləri, məktəblilər, ziyalılar şəhidlərin abidəsi önünə əklillər, təzə-tər gül dəstələri qoyaraq ruhuna dualar oxuyublar. Eyni zamanda, rayon ərazisində matəm əlaməti olaraq Azərbaycanın Dövlət bayrağı endirilib, saat 12-də rayonda şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrindən səs siqnalları verilib.





## Lerik

20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar Lerikdə də silsilə tədbirlər keçirilib.

Rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş plana uyğun olaraq yekun anım tədbiri rayon icra hakimiyyəti başçısının, hüquq-mühafizə orqanlarının, idarə, təşkilat və müəssisə kollektivlərinin, ağsaqqallar, ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Şəhidlər" abidə kompleksində təşkil olunub.

İcra hakimiyyətinin başçısı Rövşən Bağırov, digər rəsmilər və ictimaiyyətin nümayəndələri, eləcə də məktəblilər kompleksin önünə gül-çiçək dəstələri düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Anım mərasimi rayon mədəniyyət mərkəzi və şəhər 1 saylı texniki fənlər təmayüllü lisey yetirmələrinin hazırladığı bədii kompozisiya ilə davam etdirilib.



## Cəlilabad

Şəhidlərin xatirəsi Cəlilabadda da daim əziz tutulur. Burada anım mərasimi saatlarca davam edib. Rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və ictimaiyyət nümayəndələri şəhərin mərkəzindəki Şəhidlər xiyabanını ziyarət edərək, şəhid rəsmlərinin həkk olunduğu mərmər lövhələrin önünə tər qərənfillər düzüblər. Tədbir ədəbi-bədii kompozisiya ilə davam etdirilib. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Əziz Əzizov xalqımıza qarşı törədilən Qanlı Yanvar faciəsi barədə ətraflı məlumat verib.

Tədbirdə şəhidlərin əziz xatirəsinə müqəddəs "Qurani Kərim"dən ayələr və yasin surəsi oxunub, ehsanlar verilib. Həmçinin 20 Yanvar, Qarabağ əliləri, şəhid ailələrinə maddi yardımlar edilib.

## Biləsuvar

Muğanın bu gözəl şəhərindəki Mərkəzi parkda şəhidlərin əziz xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısında ümumrayon tədbiri keçirilib. Tədbirdə icra hakimiyyəti başçısının birinci müavini Xanlar Məmmədov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların kollektivləri və rayon ictimaiyyəti nümayəndələri iştirak ediblər. Əvvəlcə abidə kompleksinin önünə tər çiçəklər qoyulub və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirilib. Xanlar Məmmədov Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsi barədə ətraflı məlumat verib. O, vurğulayıb ki, xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi Vətən yolunda böyük qurbanlar verməyə hazır olan xalqımızın tarixində şərəfli bir səhifədir. Sonda rayon mədəniyyət işçilərinin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş olunub.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***